*Azər Ağazeynal oğlu QURBANZADƏ*
*Azərbaycan Kooperasiya Universitetinin dosenti, i.f.d.*

# ƏRZAQ TƏMİNATININ YAXŞILAŞDIRILMASINDA KƏND TƏSƏRRÜFATININ DAVAMLI İNKİŞAFININ EKOLOJİ FUNKSİYALARININ ROLU

***Xülasə***

Məlum olduğu kimi, ərzaq təminatı əhalinin ərzaq məhsulları ilə etibarlı şəkildə təmin edilməsini özündə əks etdirməklə çoxsaylı amillərin təsirinə məruz qalır. Qloballaşma prosesinin yeni dalğası ərzaq təminatına da çoxsaylı xarici amillərin təsirini özündə ehtiva edir. Bu baxımdan qlobal iqlim dəyişiklikləri, ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi, ekoloji cəhətdən zərərli məhsulların ölkəyə ixrac edilməsi və digər bu kimi hallar son nəticədə əhalinin sağlam qida məhsulları ilə təminatında problemlər yaradır. Ərzaq təminatının yaxşılaşdırılması kənd təsərrüfatının davamlı inkişafı ilə sıx əlaqədardır. Davamlı inkişaf isə 3 elementin: iqtisadi, sosial və ekoloji amillərin məcmusunu özündə əks etdirir. Bu baxımdan sözü gedən məqalədə ərzaq təminatının yaxşılaşdırılmasında kənd təsərrüfatının davamlı inkişafının ekoloji tərəflərinin tədqiqi qeyd olunur.

***Açar sözlər: ərzaq təminatı, kənd təsərrüfatı, kənd təsərrüfatının dayanıqlı inkişafı, ekoloji təhlükəsizlik, ekoloji kənd təsərrüfatı.***

***

Etibarlı ərzaq təminatının həyata keçirilməsi iqtisadiyyatın müxtəlif sahələrinin qarşılıqlı inteqrasiyasından və eləcə də kənd təsərrüfatı və emal sənayesinin davamlı inkişafının təmin edilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Vəziyyətin ən mürəkkəb cəhətlərindən biri isə ondan ibarətdir ki, qlobal iqlim dəyişiklikləri fonunda hava şəraitinin əlverişsiz keçməsi, eləcə də iqtisadi böhranların təsiri altında kənd təsərrüfatı məhsullarının ixracı üzrə ixtisaslaşmış ölkələrin ərzaq məhsullarının istehsalı prosesində kəskin azalmalar müşahidə edilir. Belə bir vəziyyətdə isə ərzaq təminatını yetərincə qarşılamaq mümkün olmur. Dünya praktikası göstərir ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ən başlıca vasitə yerli kənd təsərrüfatı və emal sənayesinin davamlı inkişafını təmin etməkdən ibarətdir.

Kənd təsərrüfatında ekoloji cəhətdən təmiz məhsul istehsalına nail olunması aqrar sahənin qarşısında duran ən mühüm vəzifələrdəndir. Təbii ki, bunun üçün mütərəqqi texnologiyaların ən son nailiyyətlərinin tətbiqinə və kənd təsərrüfatının maddi-texniki resurslara olan tələbatının ödənilməsinə xüsusi diqqət yetirilməlidir. Ekoloji təmiz məhsullar istehsalına çəkilən xərclər artıq olduğundan istehsal olunan məhsulun qiymətlərinin də nisbətən yüksək olmasını nəzərə alaraq, ölkə əhalisinin alıcılıq qabiliyyətinin yüksəldilməsi sahəsində müvafiq tədbirlər görülməli, əhalinin real gəlirlərinin artırılmasına yönəldilmiş problemlər öz həllini tapmalıdır [1, s. 536]. Müəllifin fikirlərindən çıxış edərək belə qənaətə gəlmək olar ki, respublikamızda kənd təsərrüfatına yararlı torpaq sahəsinin həcminin azlığını arqument götürərək respublikamızda yaxın zamanlarda ekoloji təmiz məhsul istehsalının bolluğunu həyata keçirməyin mümkün olmayacağı mütləqdir. Ekoloji sferanı sıxışdırmaqla kənd təsərrüfatı istehsalçısının qısa müddətdə mənfəət əldə etməsi iqtisadi artımla ətraf mühitin mühafizəsi arasında ziddiyyətlərə gətirib çıxarır [2, s. 136]. Müəllifin fikirlərindən çıxarılacaq əsas nəticə ondan ibarətdir ki, qloballaşma şəraitində kənd təsərrüfatında iqtisadi artımı təmin etmək üçün intensivləşmə prosesi zəruridir. İntensivləşmə ilk növbədə intensiv texnologiyaların tətbiqi, torpaqdan səmərəli istifadə edilməsi ilə bağlıdır və bu da onunla əsaslandırılır ki, kənd təsərrüfatında torpaq əsas istehsal vasitəsidir və o tükənən sərvətdir. Torpaqdan maksimum səmərəli istifadə etməklə, onun verimliliyini artırmaq, yəni məhsuldarlığını yüksəltmək vacibdir. Lakin danılmaz reallıq ondan ibarətdir ki, kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaqdan aqressiv şəkildə istifadə edilməsi təbii sərvətlərin tükənməsinə səbəb olur, torpaq məhdud istehsal amili olduğundan ondan yanlız səmərəli istifadə edildikdə iqtisadi effekt verir. Əks halda isə torpağın ekoloji müqaviməti qırılır və onların bərpası üçün xərclərin artması baş verir ki, bu da torpaqdan əldə edilən gəlirləri üstələyir [3].

Ərzaq təminatının yaxşılaşdırılması üçün kənd təsərrüfatının investisiyalaşdırılması və eləcə də emal sənayesinə investisiyaların qoyulması vacib amillərdən biridir. Ərzaq təminatının yaxşılaşdırılması baxımından kənd təsərrüfatına investisiya qoyulması prosesi, bütövlükdə, kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin yüksəldilməsini nəzərdə tutur və bu məqsədlə torpaqların meliorasiyası və irriqasiyası vacib cəhətlərdən biridir. Lakin bununla yanaşı, kənd təsərrüfatı landşaftlarının qorunması və ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlik investisiyaların qoyulması da yüksək keyfiyyətli və ekoloji cəhətdən təhlükəsiz ərzaq və kənd təsərrüfatı xammalının istehsalı baxımından mühüm rol oynayır ki, bu da nəinki kənd əhalisinin, bütövlükdə cəmiyyət üzvlərinin həyat səviyyəsinin yüksəldilməsinə əlverişli şərait yaradır [4, s. 118].

Ərzaq təminatı baxımından yanaşdıqda, kənd təsərrüfatında davamlı inkişafın ekoloji aspektlərindən biri də kənd təsərrüfatına antropogen təsirlərin güclənməsidir. Başqa sözlə, kənd təsərrüfatı təyinatlı torpaqlardan iqtisadi səmərəliliyin yüksəldilməsi baxımından digər sahələrin maraqlarının gerçəkləşdirilməsi məqsədilə istifadə edilir. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatına yararlı torpaq sahəsi məhduddur və təmayül bütövlükdə dünyada özünü büruzə verməkdədir. Əməkdar kənd təsərrüfatı işçisi i.e.d., professor İslam İbrahimovun fikrincə, ölkələrin ümumi torpaq sahəsinin tərkibində əkinəyararlı sahənin xüsusi çəkisi də dövlətlər üzrə fərqlidir. Belə ki cəmi torpaq fondunda əkinəyararlı sahənin xüsusi çəkisi Hindistanda 57,1%, Polşada 46,9%, İtaliyada 40,3%, Fransada 35,3%, Almaniyada 33,9%, ABŞ-da 19,6%, Çində 10,3%, Rusiyada 7,8%, Avstraliyada 6%, Kanadada 4,9%, Misirdə 2,8%-dir. Azərbaycanda ümumi torpaq sahəsinin (8,6 milyon hektarının) 4,7 milyon hektarı kənd təsərrüfatına yararlı torpaqlardır. Bunun da 39%-i əkin yeri, 2,6 milyon hektarı otlaqlardır. Hesablamalara görə, dünyada orta hesabla 6-7 milyon hektar kənd təsərrüfatına yararlı torpaq sahəsu eroziyaya uğrayır, 1,5 milyon hektaradək sahə isə şoranlaşmaya məruz qalır. Sənaye və nəqliyyat tikintisi altında çoxlu miqdarda torpaq qalaraq kənd təsərrüfatı dövriyyəsindən çıxır [5, s. 655]. Müəllifin qeyd etdiyi kimi, kənd təsərrüfatına yararlı torpaqlardan, xüsusilə, rayonlarda digər qeyri-kənd təsərrüfatı məqsədilə istifadə prosesləri artmışdır. Ümumiyyətlə, ərzaq təminatına ekoloji aspektdən yanaşdıqda belə qənaətə gəlmək olar ki, bu problem kifayət qədər mürəkkəb və çoxşaxəlidir. Belə ki, hətta məhsulların istehsalçıdan iatehlakçılara çatdırılması prosesinin özündə belə ekoloji tarazlığın pozulması hallarına rast gəlinir. Bundan əlavə, məhsulların düzgün qablaşdırılmaması da ərzaq təminatının ekoloji problemlərinin yaranmasına səbəb olur. Təhlil göstərir ki, xüsusilə, qida məhsullarının plastik paketlərdə qablaşdırılması mahiyyət etibari ilə insan sağlamlığına öz mənfi təsirini göstərir. İ.e.d., professor Eldar Quliyev qeyd edir ki, plastik paketlər insan sağlamlığına və ətraf mühitə ciddi zərər vermək xüsusiyyətlərinə malikdir, onlar təbiətdə yüzillər ərzində parçalanmadan qala bilirlər. Bu baxımdan insanların ərzaqları zəhərli olmayan və təbiətdə asanlıqla parçalanan kağız paketlərdə, almağa üstünlük verməsi və bununla əlaqədar olaraq tədbirlərin həyata keçirilməsi vacib şərtlərdəndir. Təkcə Azərbaycanda son illərdə orta hesabla 10-11 min ton həcmində plastik paketlər və çantalar istehsal olunur. Kağız paketlərin istehsalı isə cüzi səviyyədədir. Çünki ölkədə bunun üçün yerli xammal yoxdur və kağız əsasən Rusiyadan idxal edilir. Plastik paketlər artıq Avropa ölkələrində, hətta ayrı-ayrı Afrika ölkələrində qadağan edilmişdir. Böyük Britaniyada plastik paketlərdən istifadəyə vergi tətbiq edilmişdir. Bu paketlərin istehsalı Çin və Hindistanda da qadağan edilmişdir. Bəzi ölkələrdə qida məhsullarının ticarət şəbəkələrində plastik paketləri təkrar emala qəbul edən avtomatlar quraşdırılmışdır. Plastik paketlərin ən qorxulu cəhətləri və fəsadları onlarda olan bakteriyalarla bağlıdır. Nəticədə, plastik paketlərə yığılmış qida məhsulları qısa müddət ərzində öz keyfiyyətini itirir, kiflənir, təhlükəli və zərərli olan toksinlər yaranır, zəhərli formaldehit qazı ayrılır, plastik tullantılar yanan zaman əmələ gələn toksiki tüstü isə atmosfer havasını zəhərləyir və s. [6, s. 464 ]. Müəllifin fikirlərindən yaranan nəticə ondan ibarətdir ki, ərzaq təminatı ekoloji aspektləri son nəticədə qida təhlükəsizliyi problemini gündəmə gətirir. Beləliklə, ərzaq təminatının yaxşılaşdırılmasında kənd təsərrüfatının davamlı inkişafının ekoloji funksiyalarının rolunu qiymətləndirərkən belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatında istehsal edilən məhsulların ekoloji cəhətdən təmiz olması rəqabət qabiliyyətinin formalaşmasının mühüm amili olub, eyni zamanda əhalinin sağlam qida məhsulları ilə qidalanmasında da mühüm rol oynayır.

## ƏDƏBİYYAT

1. Ataşov B. X., Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika), Bakı, 2017, 536 s.
2. Сергиенко О.В. Экономические, экологические и социальные факторы в антикризисной стратегии сельского хозяйства в условиях новых качеств глобальной экономической среды // Продовольственная политика и безопасность. – 2023. – Том 10. – № 1. – С. 121-136
3. Шагайда Н.И., Узун В.Я. Тенденции развития и основни вызовы аграрного сек тора России // Экономика сельскохозяйственных и перерабатывающих предприя тий. - 2018. - № 9.
4. Волков А.Р., Голубева А.С. Устойчивое развитие регионов: подходы к исследованию // Инновационные технологии управления социально-экономическим развитием регионов: Материалы XIII Международной научно-практической конференции, посвященной 70-ти летнему юбилею со дня основания Института социально-экономических исследований УФИЦ РАН. Уфа, 2021. - с. 113-118
5. İbrahimov, İ.H., Aqrar sahənin iqtisadiyyatı, Monoqrafiya, Bakı, 2016, 655 s.
6. Quliyev E.A., Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya, Bakı, 2020, 464 s.



***Азер Агазейнал оглы Гурбанзаде***
***Доцент Азербайджанского Университета Кооперации, к.э.н***


**Роль экологических функций устойчивого развития сельского хозяйства в повышении продовольственной безопасности**


***Резюме***

Как известно, на продовольственное обеспечение влияет множество факторов, в том числе и надежность снабжения населения продуктами питания. Новая волна процесса глобализации включает в себя влияние многочисленных внешних факторов на снабжение продовольствием. В связи с этим глобальные изменения климата, экологический дисбаланс, загрязнение окружающей среды, вывоз в страну экологически вредной продукции и другие подобные ситуации в конечном итоге создают проблемы в обеспечении населения продуктами здорового питания. Повышение продовольственной безопасности тесно связано с устойчивым развитием сельского хозяйства. Устойчивое развитие отражает сочетание трех элементов: экономических, социальных и экологических факторов. В связи с этим в рассматриваемой статье упоминается исследование экологических аспектов устойчивого развития сельского хозяйства при улучшении продовольственного обеспечения.



***Azer Agazeynal Gurbanzade***
***Associate Professor of Azerbaijan Cooperation University***


**The role of ecological functions of sustainable development of agriculture in improving food security**


***Summary***

As is known, food supply is influenced by many factors, including the reliable supply of food products to the population. The new wave of the globalization process includes the influence of numerous external factors on the food supply. In this regard, global climate changes, ecological imbalance, environmental pollution, export of ecologically harmful products to the country and other similar situations ultimately create problems in providing the population with healthy food products. Improving food security is closely related to the sustainable development of agriculture. Sustainable development reflects a combination of 3 elements: economic, social and environmental factors. In this regard, the article in question mentions the study of ecological aspects of the sustainable development of agriculture in the improvement of food supply.